# KIÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFININ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

*Hüsüyev B.B., doktorantı İstanbul Dövlət Universitetnin*
*Babak.husuyev@mdu.edu.az*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Ölkənin iqtisadi inkişafı onun kiçik və orta biznesinin inkişafından bilavasitə asılıdır. Ölkədə istehsal həcminin artması eyni zamanda ümimdaxili məshusul həcminin artmasına gətirib çıxarır. Heç bir ölkə istehsal olmadan iqtisadiyyatını dirçəldə bilməz bu səbəbdən iqtisadi inkişafı əldə etmək üçün ilk növbədə kiçik və orta biznesin inkişafı üçün ölkədə makro iqtisadi mühit formalaşdırılmalıdır. Makro iqtisadi mühit dediyimiz zaman: ölkədə təhsil səviyyəsinin yaxşılaşdırılması, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, gömrük proseslərində proteksianist yanaşmaların aparılması, ölkədə qanunvericilik sisteminin işlənib hazırlanması, vergi sisteminin eyni zamanda sisayi sabitliyin qorunub saxlanılması, kiçik və orta biznes sahibləri üçün dövlət təstəyinin göstərilməsi kimi amillər nəzərdə tutulur. Kiçik və orta biznesə dövlət dəstəyinin göstərilməsi dedikdə, subsidyaların verilməsi, lizing fəaliyyətinin genişləndirilməsi, aşağı faiz dərəcələri ilə biznes kreditlərinin verilməsi və.s başa düşülür. Eyni zamanda vergi güzəştlərinin tədbiq olunması sahibkarlıq fəaliyyətinə marağı artırır ki, buda ölkədə kiçik və orta biznes sahiblərinin sayının artmasında özünü göstərir. Kiçik biznesin bir sıra üstün cəhətləri vardır ki, bunlara aşağıdakilar aid edilə bilər. Biznesin yaradılmasına yüksək maliyyə tələb olunmur; Bazarda yeni yaradılan məhsula çevik cavab verir; Yeni texnologiyalara uyğunlaşmaq qısa vaxt tələb edir; Risk azdır; İri bizneslərin xammal təminatçısıdır.

Ölkədə yeni iş yerlərinin yaradılması yeni iş imkanları formalaşdırır. Regionlar arası iqtisadi əlaqlərin genişləndirilməsi ölkədə sosial-iqtisadi qeyri bərabərliyin aradan qaldırılmasına təminat verir. Biznes sadəcə gəlir qaynağı deyil eyni zamanda insanların istehlak ehtiyaclarını qarşılayan sosial bir amildir. İnsanların öklə daxili ehtiyaclarının qarşılanması, ölkənin xarici iqtisadi asılılığını aradan qaldırı. Ölkə istehlakçı ölkədən istehlakçı ölkəyə çevrilir. Buda öz növbəsində ölkəyə xarici valyuta axınını təmin edir və nəticədə ölkə valyutası dəyər qazanmağa başlayır. Kiçik və orta biznesin inkişafı ümumi milli məhsulun həcminin artmasına gətirib çıxarır.

Ölkədə sosial-iqtisadi qeyri bərabərliyi aradan qaldırmaq, kənd təsərüffatını eyni zamanda regionlarda sənaye isthesalını inkişaf etdirmək və neftdən asılılığı azaltmaq, qeyri-neft sektorunun inkişaf etməsi üçün Azərbaycan Respublikasının Prezidenti bir sıra fərmanlar və programlar

imzalamışdır ki, bunlara: Ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermək üçün 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023 "Regionların sosial-iqtisadi inkişafı dövlət programı"nı, 2014-ci il "Sənaye ili" elan edilməsini 2015-ci il "Kənd təsərrüfatı ili" elan edilməsini, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmasını aid edə bilərik. Regionların sosial-iqtisadi inkişafı dövlət programı regionlar arası sosial-iqtisadi qeyr bərabərliyi aradan qaldırmağa eyni zamanda yeni investisiya mühitinin formalaşdırılması nəticəsində daxili və xarici investosların regionlara cəlb edilməsini, yeni iş yerlərinin açılmasına və regionlarda işsizlik səviyyəsini azaltmağını hədəfləməktədir və bu istiqamətdə müsbəst dəyişikliklər olduğu görülməktədir. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Bu programların qəbul olunması ölkədə qeyri-neft sektoruna marağın artmasına yol açmışdır. Sənaye müəssisələrin sayının artması ölkədə xammal ehtiyacını artırmış buda öz növbəsində kənd təsərrüfatı, kiçik və orta biznesin inkişafı üçün mümbit bir mühit yaratmışdır. Yeni iş yerlərinin açılması yeni kadr ehtiyacları yartmaqdadır. İxtisaslı kadırlara olan ehtiyac eyni zamanda ölkədə təhsil səviyyəsin yüksəldilməsinə yol açmaqdadır. Beləliklə kiçik və orta biznesin inkişafı təhsil, səhiyyə və sənayenin inkişafına, sənayenin inkişafı ölkə iqtisadiyyatının inkişafına yol açmaqdadır.

**Ədəbiyyat.**

1. 2014-cü ilin Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
2. 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
3. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı.